# "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu il üzrə icrasına dair monitorinq və qiymətləndirmə HESABATI

## Metodoloji izahat

"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu ildə icrasına dair monitorinq və qiymətləndirmə hesabatı hazırlanarkən əvvəlki dövrdə monitorinq və qiymətləndirmə sahəsində araşdırılmış beynəlxalq təcrübə və Strateji Yol Xəritələrinin monitorinqi prosesində istifadə olunması üçün Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (UNDP) və Dünya Bankının texniki dəstəyi ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində hazırlanmış təlimatlardan istifadə edilmişdir.

## Fəaliyyət göstəricilərinin qiymətləndirilməsi

Təqdim olunan hesabatda tədbirlərin icrasının təsviri təhlil edilmiş, icranın məqsədlərə, xüsusən də gözlənilən nəticələrə uyğunluğu baxımından müqayisəsi aparılmış, təsdiqedici sənədlər yoxlanılmış və internet resurslarda müvafiq məlumatların mövcudluğu nəzərdən keçirilmişdir. Hər bir tədbirin qiymətləndirilməsi 3 səviyyəli şkala üzrə aparılır:

- Tam icra - işlər plan üzrə tam yerinə yetirilmiş, gözlənilən nəticələr əldə olunmuşdur;
- Qismən icra - işlər yetərli səviyyədə görülməyib, mahiyyətinə tam uyğun deyil və ya gözlənilən nəticələr əldə olunmayıb;
- İcra olunmayıb - işlər çox az görülüb və ya faktiki olaraq mahiyyətə uyğun deyil.

Proqramın hər bölməsi (istiqaməti) ayrı-ayrılıqda qiymətləndirilmiş, tərəqqinin təsviri hesabatı, icra olunmuş fəaliyyətlərin qiymətləndirmə cədvəlləri tərtib edilmişdir. Əsas istiqamətlər və Dövlət Proqramı üzrə ümumi qiymətləndirmə aparılarkən tədbirlərə verilmiş qiymətlərin ortalaması çıxarılmışdır (riyazi hesablama zamanı qiymətlər 0-100 bal arası götürülmüşdür).

## Tərəqqiyə ümumi rəy

"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu ilin icra vəziyyətinə dair hesabatın təhlili göstərir ki, əksər tədbirlər üzrə dolğun məlumat təqdim edilmişdir. Emal edilən məlumatlar icraçılar tərəfindən görülmüş işlərin tədbirlərin mahiyyətinə uyğunluq səviyyəsini əksər hallarda təsəvvür yaratmağa imkan verir. Planlaşdırılmış

tədbirlərin 50%-nin icrası yekunlaşmış, 2%-i qismən icra edilmiş, 48%-i isə icra olunmamış hesab edilir. Ümumilikdə proqramın cari dövr üçün icrası 51 bal səviyyəsində qiymətləndirilmişdir.

## Proqram üzrə əsas fəaliyyətlər

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq icraçı qurumlar aşağıdakı əsas istiqamətlər üzrə fəaliyyətlərini həyata keçirmişlər:

1) Rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması (ümumi qiymət "67");

2) Bank sektorunun yenidən canlandırılması (ümumi qiymət "37");

3) Rəqəmsal ekosistemin formalaşdırılması (ümumi qiymət "48");

4) Rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi (ümumi qiymət "55")

## İcra edilmiş fəaliyyətlər üzrə İcmal

Əlverişli biznes mühitinin inkişaf etdirilməsi üzrə tədbirlər icra edilmiş, normativ və tənzimləyici bazanın inkişafı istiqamətində sənədlər hazırlanmış, kiçik və orta sahibkarlara konsultasiya, brendinq və digər istiqamətlərdə dəstək göstərilmişdir. Dövlət satınalmalarında kiçik və orta sahibkarların üstün şərtlərlə iştirakına şərait yaradan müddəalar qanunvericiliyə daxil edilmişdir. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə əlaqədar beynəlxalq təcrübənin araşdırılması və sahəvi klasterlərin yaradılmasının stimullaşdırılması tədbirləri həyata keçirilmişdir. Vergitutma mexanizminin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması və könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilmişdir. Vergiyə cəlbi stimullaşdıran səmərəli vergi sisteminin təşviq edilməsi, çevik və məsafədən vergi nəzarətinin həyata keçirilməsinə imkan verəcək yeni məlumat mənbələrindən istifadənin genişləndirilməsi üzrə tədbirlər icra edilmiş, mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazları ilə bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələri hazırlanmışdır. Sadələşdirilmiş vergi sisteminin tədricən ƏDV sistemi ilə əvəzləşdirilməsi istiqamətində beynəlxalq təcrübə araşdırılmaqla, qanunvericiliyə dəyişikliklər edilmişdir. İşəgötürənlərin və fiziki şəxslərin gəlir vergisinin və məcburi dövlət sosial sığorta haqlarının optimallaşdırılması üzrə təkliflərin hazırlanması üzrə müvafiq tədbirlər görülmüşdür.

Bankların kapitallaşmasının nəzarətdə saxlanılması və likvidliyinin təmin edilməsi üzrə təkmil alətlərin işə salınmasına dair əlavə kapitallaşmaya ehtiyacı olan bankların kapitalizasiya planları təsdiq edilmiş, kreditorların hüquqlarını müdafiə mexanizminin təkmilləşdirilməsi istiqamətində işlər görülmüşdür. Pul bazarında reprezentativ bazar faiz indeksinin formalaşdırılması üzrə təkliflər hazırlanmış, qeyri-rezidentlərin pul bazarında iştirakı şərtlərinin müəyyənləşdirilməsi istiqamətində beynəlxalq təcrübə araşdırılmışdır. Pul siyasəti alətlərinin kommunikasiyası məqsədi ilə tədbirlər (dəyirmi masa, seminar və treyninqlərin təşkili və s.) həyata keçirilmişdir.

Startaplarda işləmək və ya yeni bir işə başlamaq üçün Azərbaycana gələn rəqəmsal sahibkarlar üçün ölkəyə daxilolma prosedurlarının (məsələn, xüsusi sahibkarlıq vizası verilməklə) asanlaşdırılması məsələləri üzrə araşdırma aparılmışdır. Biznes-inkubatorlar vasitəsilə mentorluq və işgüzar əlaqələrin qurulmasının dəstəklənməsi, startap layihələrin yaradıcıları üçün maarifləndirici təlimlərin keçirilməsi üzrə fəaliyyətlər icra edilmişdir. Elektron ticarətin inkişaf etdirilməsi üzrə normativ aktlar hazırlanmış, elektron ticarət şəbəkələrindən alınmış malların istehlakçılara dəqiq və vaxtında çatdırılması üçün "Azərpoçt" MMC-nin potensialının artırılması üzrə ehtiyaclar müəyyənləşdirilməklə tədbirlər görülmüşdür. Elektron ticarətdə alqı-satqı əməliyyatları zamanı istehlakçıların hüquqlarının qorunması istiqamətində təkliflər hazırlanmış, Rəqəmsal bankçılığın, rəqəmsal ödəniş texnologiyalarının hüquqi bazasının təkmilləşdirilməsi məqsədilə normativ hüquqi aktlar hazırlanmışdır. Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi istiqamətində Ani Ödənişlər sisteminin (AÖS) yaradılması üzrə texniki infrastruktur hazırlanmış, ISO20022 standartlarının tətbiqi üzrə bank sektorunda mövcud vəziyyətin qiymətləndirilməsi üçün beynəlxalq ekspertlər cəlb edilmişdir. Bank olmayan ödəniş xidməti təchizatçılarının bazarın aktiv iştirakçısına çevrilməsi və onlar tərəfindən innovativ ödəniş həllərinin tətbiqinin genişləndirilməsi məqsədilə təbliğat və təşviqat layihələri hazırlanmış, ölkədə ən son maliyyə texnologiyalarının tətbiqi məqsədilə Rəqəmsal Transformasiya Planı hazırlanmış, Paylanılmış reyestr texnologiyasına əsaslanan Rəqəmsal İdentifikasiya Sistemi yaradılmışdır. Rəqəmsal bankçılığın inkişaf etdirilməsi məqsədilə elektron imza sertifikatlarından bütün növ rəqəmsal bank xidmətlərinin alınmasında və hökumət platformalarında qarşılıqlı istifadənin genişləndirilməsi istiqamətləri müəyyənləşdirilmiş, elektron imza sertifikatlarından bütün növ rəqəmsal bank xidmətlərinin alınmasında və hökumət platformalarında qarşılıqlı istifadə üzrə texniki imkanlar yaradılmışdır. Məsafəli bank xidmətlərinin tətbiqinə mane olan amillər müəyyən edilmiş, internet və mobil bankçılıq xidmətlərinin bankların klassik xidmət paketinə daxil edilməsi üçün banklarla təbliğat və təşviqat işləri aparılmışdır. Ölkəyə səfər edən xarici turistlərin nəqliyyatda (o cümlədən taksidə), əyləncə yerlərində, alış-veriş mərkəzlərində hesablaşmaları nağdsız qaydada həyata keçirmələrinə imkan verən öncədən ödənilmiş ödəniş məhsullarının yaradılması təmin edilmişdir. Debet ödəniş kartı funksiyalarını özündə birləşdirən və beynəlxalq standartlara ("International Student Identity Card" – ISIC standartlarına) uyğun vahid tələbə biletlərinin verilməsi imkanları qiymətləndirilmiş və bir neçə universitetdə tətbiqinə başlanılmışdır. Aşağı gəlirli əhali qrupları üçün pulsuz "Baza bank xidmətləri paketi"nin tətbiqi üzrə beynəlxalq təcrübənin təhlili aparılmış, banklarda İT sistemlərinin təhlükəsizlik tələbləri üzrə normativ bazanın hazırlanması məqsədilə işçi qrupu formalaşdırılmış, ödəniş xidmətləri üzrə mövcud tariflərin beynəlxalq təcrübə ilə müqayisə edilməklə qiymətləndirilməsi aparılmışdır. Rayon mərkəzlərindən kənar ərazilərdə "ödəniş agenti" modelinin tətbiqi üzrə beynəlxalq təcrübə araşdırılmış, bank olmayan ödəniş xidməti təchizatçılarının "ödəniş agenti" şəbəkəsinin fəaliyyətinin genişləndirilməsinin təşviq edilməsi üzrə araşdırmalar aparılmış, normativ hüquqi

aktların layihələri hazırlanmışdır. Təsərrüfat subyektlərinə və istehlakçılara nağdsız qaydada aparılan əməliyyatlar üzrə müddətli vergi güzəştlərinin verilməsi və digər stimullaşdırıcı tədbirlərin görülməsi üzrə tədbirlər icra edilmişdir.

Maliyyə savadlılığının yüksəldilməsi istiqamətində ümumi təhsil pilləsində tədris edilən "Həyat bilgisi" fənninin tədrisi üçün dəstəkləyici vəsaitlər hazırlanmış, "Həyat bilgisi" fənni tədris edən müəllimlərə müvafiq təlimlər təşkil olunmuşdur. İş yerlərində rəqəmsal ödənişlər haqqında zəruri biliklərin verilməsi üzrə seminar və təlim materialları hazırlanmış, rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması məqsədilə ölkə üzrə kütləvi təbliğat və təşviqat kompaniyası keçirilmişdir. Bank və sığorta məhsul və xidmətləri, habelə tarifləri (o cümlədən bankların təklif etdiyi ödəniş kartları və onların özəllikləri) barədə məlumatlar təqdim edən axtarış sistemi istifadəyə verilmişdir.

## İcra edilməmiş fəaliyyətlər üzrə İcmal

- İşəgötürənləri və işçiləri əməkhaqların rəsmiləşdirilməsinə həvəsləndirmək üçün tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər planı hazırlanmamışdır.
- Qeyri-formal məşğulluğun yüksək olduğu sektorlarda əmək müqaviləsi qeydiyyata alınmamış işçi sayının azaldılması üçün "minimum əmək" standartlarının yaradılması istiqamətində tədbirlər icra edilməmişdir.
- Sosial müdafiə tədbirlərinin ünvanlılığının və effektivliyinin artırılması üçün əsas risk göstəricilərinin monitorinqi və təhlili sisteminin qurulmasına dair beynəlxalq təcrübə araşdırılıb müvafiq yanaşma müəyyənləşdirilməklə əsas risk göstəricilərinin təhlili sistemi qurulmamışdır.
- Banklararası bazarda likvidliyin monitorinqi və proqnozlaşdırılması üzrə daha təkmil alətlər müəyyənləşdirilməmiş və işə salınmamışdır.
- Marketmeyker institutunun yaradılması imkanlarının qiymətləndirilməsi tədbirləri üzrə fəaliyyətlər icra edilməmişdir.
- Problemli aktivlərin idarə edilməsi üzrə yeni mexanizmlərin yaradılması istiqamətində nəzərdə tutulan fəaliyyətlər icra edilməmişdir.
- Bankların fəaliyyəti üzərində nəzarətin təkmilləşdirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər-konsolidasiya olunmuş nəzarətin tətbiqi ilə bağlı nəzarət subyektlərinin hesabat formalarının təkmilləşdirilməsi, konsolidasiya olunmuş nəzarətə tam keçid üçün metodoloji rəhbərliklərin təkmilləşdirilməsi, riskəsaslı nəzarət yanaşmasının tətbiqi imkanlarının araşdırılması icra edilməmişdir.
- Kreditorların hüquqlarını müdafiə mexanizminin təkmilləşdirilməsi istiqamətində məhkəmə qərarlarının qəbulu və icrası, girovun rəsmiləşdirilməsi və təminata tutmanın yönəldilməsi üzrə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində tədbirlər icra edilməmişdir.
- Poçt şöbələri ilə yanaşı, 7/24 rejimində çalışan "smart-banderol" qutularından da istifadəsinə dair beynəlxalq təcrübə araşdırılmamış və tədbirlər icra edilməmişdir.
- Müasir tələblərə cavab verən logistika infrastrukturunun yaradılması üzrə ehtiyaclar müəyyənləşdirilməmişdir.

- Bank olmayan ödəniş xidməti təchizatçılarının fəaliyyətinin iqtisadi, hüquqi və təşkilati əsaslarını müəyyən edən hüquqi bazanın yaradılması istiqamətində tədbirlər icra edilməmişdir.
- Kiçik təsərrüfat subyektlərinə nağdsız ödəniş qəbul etmək imkanı verən ucuz ödəniş üsullarının təqdim edilməsi istiqamətində işlər görülməmişdir.
- Elektron bank xidmətlərində yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi ilə elektron imza sertifikatlarından istifadənin genişləndirilməsi üzrə tədbirlər görülməmişdir.
- Bakı şəhərində ictimai nəqliyyatda gediş haqlarının nağdsız qaydada ödənilməsini təmin edən infrastrukturun tətbiqinin bütün nəqliyyat növləri və marşrutları üzrə başa çatdırılması və avtomobillərin parklanma haqlarının nağdsız qaydada ödənilməsi imkanlarının nəzərdən keçirilməsi tədbirləri çərçivəsində nəzərdə tutulan fəaliyyətlər icra edilməmişdir
- Sosial ödənişlərin paylanması sahəsində banklararası rəqabət mühitinin gücləndirilməsi istiqamətində nəzərdə tutulan fəaliyyətlər icra edilməmiş, müvafiq araşdırmalar aparılmamış və buna müvafiq tədbirlər icra edilməmişdir.
- Rəqəmsal bankçılıq xidmətləri sahəsində bank mütəxəssislərinin və bank olmayan ödəniş xidməti təchizatçılarının və ödəniş sistemi operatorları mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə fəaliyyətlər icra edilməmişdir.

## İcra vəziyyəti üzrə tövsiyələr

- "Vahid Mühasibatlıq Sistemi"nin tətbiq edilməsi ilə bağlı miqrasiya planının icrasına başlanılması tövsiyə olunur.
- Sadələşdirilmiş vergi sisteminin tədricən ƏDV sistemi ilə əvəzləşdirilməsi məqsədilə mərhələli keçid planının hazırlanması və ƏDV dərəcəsinin diferensiallaşdırılması məsələlərinin nəzərdən keçirilməsi tövsiyə olunur.
- Bankların kapitallaşmasının nəzarətdə saxlanılması və likvidliyinin təmin edilməsi üzrə təkmil alətlərin işə salınması istiqamətində tədbirlərin icrasının gücləndirilməsi, bankların "sağlamlaşdırıcı" konsolidasiya imkanları öyrənilməklə tədbirlər planının hazırlanması tövsiyə olunur.
- Problemli aktivlərin idarə edilməsi ilə bağlı beynəlxalq təcrübədə tətbiq edilmiş mümkün mexanizmlər araşdırılmaqla yeni yanaşmaların müəyyənləşdirilməsi tövsiyə olunur.
- Qiymətli kağızlar bazarının dərinləşdirilməsi və bu əsasda banklararası REPO bazarının inkişafı istiqamətində dövlət qiymətli kağızlarının həcminin və çeşidinin artırılması imkanlarının təhlili istiqamətində araşdırmaların davam etdirilməsi və dövlət qiymətli kağızlarının və Mərkəzi Bankın qısamüddətli notlarının həm ilkin, həm də təkrar bazarda əməliyyatların vahid elektron ticarət platformasına keçirilməsi üzrə fəaliyyətlərin icrasının sürətləndirilməsi tövsiyə olunur.
- Elektron ticarət platformaları üçün minimal təhlükəsizlik tələblərinin müəyyən edilməsi istiqamətində tədbirlərin sürətləndirilməsi və tamamlanması tövsiyə olunur.

- Banklararası pul bazarının inkişafına xidmət edən infrastruktur elementlərinin inkişafı istiqamətində pul bazarında reprezentativ bazar faiz indeksi formalaşdırılması və istifadəsinə dair tədbirlərin icrasının sürətləndirilməsi və likvidliyin proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi tövsiyə olunur.
- Startap layihələrinə qeyri-maliyyə dəstəyinin verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflər hazırlanmaqla aidiyyəti üzrə təqdim edilməsi və müvafiq dəstək tədbirlərinin icrasının sürətləndirilməsi tövsiyə olunur.
- Elektron ticarətin inkişaf etdirilməsi istiqamətində tədbirlərin icrafrəsının sürətləndirilməsi tövsiyə olunur.
- Qeyri-rezident vergi ödəyicilərinə münasibətdə vergitutma mexanizminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin icrasının sürətləndirilməsi tövsiyə olunur.
- Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi istiqamətində tədbirlərin icrasının sürətləndirilməsi, AÖS-ə inteqrasiya edilməli təşkilatlarla işlərin gücləndirilməsi tövsiyə olunur.
- İstifadəçidən istifadəçiyə əməliyyat proseslərini avtomatlaşdırmağa imkan verən maliyyə sisteminin universal mübadilə standartlarının (ISO20022) tətbiqi üçün tədbirlər planının hazırlanması istiqamətində işlərin sürətləndirilməsi tövsiyə olunur.
- Ödəniş təşkilatlarının və elektron pul təşkilatlarının imkanlarından istifadə etməklə rəqəmsal ödənişlərin tətbiqinin genişləndirilməsi, mobil operatorları ödəniş bazarına cəlb etməklə "mobil pul kisələri" kimi müasir ödəniş mexanizmlərinin yaradılması üzrə yanaşmaların müəyyənləşdirilməsi, təbliğat-təşviqat işlərinin sürətləndirilməsi tövsiyə olunur.
- Bankların İT sistemlərinə təhlükəsizlik tələblərinin gücləndirilməsi istiqamətində tədbirlərin icrasının sürətləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və normativ layihələrin hazırlanması üzrə işlərin sürətləndirilməsi tövsiyə olunur.
- Aşağı gəlirli əhali qrupları üçün pulsuz "Baza bank xidmətləri paketi"nin tətbiqinin təşviq edilməsi istiqamətində tədbirlərin icrasının sürətləndirilməsi tövsiyə olunur.
- Rayon mərkəzlərindən kənar ərazilərdə əhali və biznesə maliyyə xidmətlərindən istifadə imkanlarının yaradılması məqsədilə müvafiq infrastrukturun genişləndirilməsi və istehlakçılar üçün daha əlverişli ödəniş xidməti haqlarının tətbiqi ilə bağlı normativ hüquqi aktların layihələri üzrə fəaliyyətlərin icrasının sürətləndirilməsi tövsiyə olunur.
- Rəqəmsal bankçılığın təşviqi üzrə tədbirlərin, iş yerlərində rəqəmsal ödənişlər haqqında zəruri biliklərin verilməsi icrasının sürətləndirilməsi, rəqəmsal bankçılığın təşviqi üzrə tədbirlərin icrasına bank sektorunun daha yaxından cəlbi tövsiyə olunur.

## "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu ildə icra vəziyyəti



# “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2019-cu ildə icra vəziyyəti

| Əsas icraçı qurumların performansı (100 ballıq şkala əsasında) | | Məsul olduqları tədbirlərin sayı |
|---|---|---|
| Təhsil Nazirliyi | 100 | 2 |
| Dövlət Turizm Agentliyi | 100 | 1 |
| İqtisadiyyat Nazirliyi | 72 | 12 |
| Maliyyə Nazirliyi | 67 | 1 |
| Mərkəzi Bank* | 48 | 27 |
| Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 40 | 3 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 20 | 5 |
| Bakı Nəqliyyat Agentliyi | 0 | 2 |

***Ləğv edilmiş Maliyyə Bazarlarına Nəzarət Palatasının tədbirləri daxil olmaqla***

# "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2019-cu ildə icra vəziyyəti

**- 2019-cu il üzrə icra vəziyyəti** **51%**

≤ 10% | 10%—90% | ≥ 90%

## Prioritetlərin icra vəziyyəti

| | | | |
|---|---|---|---|
| Əlverişli biznes mühitinin inkişaf etdirilməsi | 86% | Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi | 41% |
| Vergi sisteminin effektivliyinin artırılması | 79% | Rəqəmsal bankçılığın inkişaf etdirilməsi | 57% |
| Sosial müdafiə sisteminin gücləndirilməsi üçün qeyri-formal məşğulluğun azaldılması istiqamətində tədbirlərin görülməsi | 27% | Smart ödəniş vasitələrinin geniş tətbiqi | 22% |
| Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi | 30% | Mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksəldilməsi | 42% |
| Aktiv pul bazarının formalaşdırılması | 42% | Regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması | 50% |
| Rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi | 60% | Rəqəmsal ödənişlərin stimullaşdırılması | 80% |
| Elektron ticarətin inkişaf etdirilməsi | 36% | Maliyyə savadlılığının yüksəldilməsi | 38% |
| Ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi | 80% | Rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması | 100% |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| **İSTİQAMƏT 1. RƏQƏMSAL ÖDƏNİŞLƏRİN İNSTİTUSİONAL MÜHİTİNİN DAHA DA CANLANDIRILMASI** | | | | |
| **Görülmüş işlər barədə qısa məlumat:**<br>Əlverişli biznes mühitinin inkişaf etdirilməsi üzrə tədbirlər icra edilmiş, normativ və tənzimləyici bazanın inkişafı istiqamətində sənədlər hazırlanmış, kiçik və orta sahibkarlara konsultasiya, brendinq və digər istiqamətlərdə dəstək göstərilmişdir.  Dövlət satınalmalarında kiçik və orta sahibkarların üstün şərtlərlə iştirakına şərait yaradan müddəalar qanunvericiliyə daxil edilmişdir. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə əlaqədar beynəlxalq təcrübənin araşdırılması və sahəvi klasterlərin yaradılmasının  stimullaşdırılması tədbirləri həyata keçirilmişdir.  Vergitutma mexanizminin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması və könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı  Vergi Məcəlləsinə dəyişikliklər edilmişdir. Vergiyə cəlbi stimullaşdıran səmərəli vergi sisteminin təşviq edilməsi, çevik və məsafədən vergi nəzarətinin həyata keçirilməsinə imkan verəcək yeni məlumat mənbələrindən istifadənin genişləndirilməsi üzrə tədbirlər icra edilmiş, mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazları ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla  normativ hüquqi aktların layihələri hazırlanmışdır. Sadələşdirilmiş vergi sisteminin tədricən ƏDV sistemi ilə əvəzləşdirilməsi istiqamətində beynəlxalq təcrübə araşdırılmaqla, qanunvericiliyə dəyişikliklər edilmişdir. İşəgötürənlərin və fiziki şəxslərin gəlir vergisinin və məcburi dövlət sosial sığorta haqlarının optimallaşdırılması üzrə  müvafiq tədbirlər görülmüşdür. | | | | |
| **icra edilmişdir** | **67%** | | | |
| **qismən icra edilmişdir** | **0%** | | | |
| **icra edilməmişdir** | **33%** | | | |
| **1.1. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi** | | | | |
| **1.1.1. Əlverişli biznes mühitinin daha da inkişaf etdirilməsi məqsədilə rəqabət mühitinin gücləndirilməsi istiqamətində təkliflərin təqdim edilməsi** | **İqtisadiyyat Nazirliyi** | **Ədliyyə Nazirliyi** | **2018-2019** | **icra edilmişdir** |
| 1. Antiinhisar siyasətini formalaşdıran və həyata keçirən dövlət qurumlarının  səlahiyyətlərinin artırılması istiqamətində təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2018<br>IV rüb | icra vəziyyəti qiymətləndirilmir |
| 1.  Antiinhisar siyasətinin formalaşması istiqamətində  təkliflər  hazırlanmışdırmı? | | | | 2018-ci ildə icra edilmişdir |
| 2. Rəqəmsal hesabatlılıq sisteminin yaradılması ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və yerli şəraitə uyğun müvafiq təkliflərin verilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2018<br>IV rüb | icra vəziyyəti qiymətləndirilmir |
| 2.    Rəqəmsal hesabatlılıq sisteminin yaradılması ilə bağlı təkliflər verilmişdirmi? | | | | 2018-ci ildə icra edilmişdir |
| 3. Rəqəmsal hesabatlılıq sisteminin yaradılması ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2019<br>I yarımillik | icra edilmişdir |

| | | | | |
|---|---|---|---|---|
| 3. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla rəqəmsal hesabatlılıq sisteminin yaradılması ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdirmi? | | | | Bəli |
| 4. Rəqəmsal hesabatlılıq sisteminin yaradılması və fəaliyyətə başlaması | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi<br>Dövlət Statistika Komitəsi* | 2019<br>II yarımillik | icra vəziyyəti qiymətləndirilmir |
| 4. Rəqəmsal hesabatlılıq sistemi yaradılmışdırmı? | | | | 2019-cu ildə icra vəziyyəti qiymətləndirilmir |
| 5. Rəqəmsal hesabatlılıq sistemi fəaliyyətə başlamışdırmı? | | | | 2019-cu ildə icra vəziyyəti qiymətləndirilmir |
| **1.1.2. Kiçik və orta müəssisələrin rəqabət qabiliyyətinin artırılması üçün təkliflərin təqdim edilməsi** | **İqtisadiyyat Nazirliyi** | **Ədliyyə Nazirliyi** | **2018-2019** | **icra edilmişdir** |
| 1.Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən kiçik və orta sahibkarlara konsultasiya, brendinq və digər istiqamətlərdə dəstəyin göstərilməsi | İqtisadiyyat Nazirliyi | | 2018-2019 | icra edilmişdir |
| 1. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən kiçik və orta sahibkarlara dəstək göstərilmişdirmi? | | | | Bəli |
| 2. Kiçik və orta sahibkarlığın inkişafı ilə bagli problemlərin mütəmadi araşdırılması və biznes qurumları ilə dövlət qurumları arasında əməkdaşlığın qurulması üzrə yerli şəraitə uyğun müvafiq təkliflərin hazırlanması | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2018<br>IV rüb | icra vəziyyəti qiymətləndirilmir |
| 2. Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı yerli şəraitə uyğun müvafiq təkliflər hazırlanmışdırmı? | | | | 2018-ci ildə icra edilmişdir |
| 3. Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2019 | icra edilmişdir |
| 3. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdirmi? | | | | Bəli |
| 4. Dövlət satınalmalarında kiçik və orta sahibkarların üstün şərtlərlə iştirakının təmin edilməsinə nəzarət edilməsi | İqtisadiyyat Nazirliyi | | 2019 | icra edilmişdir |
| 4. Dövlət satınalmalarında kiçik və orta sahibkarların üstün şərtlərlə iştirakı genişləndirilmişdirmi? | | | | Bəli |
| **1.1.3. Rəqabət Məcəlləsinin yekun redaksiyasının hazırlanması və aidiyyəti üzrə təkliflərin təqdim edilməsi** | **İqtisadiyyat Nazirliyi** | **Ədliyyə Nazirliyi** | **2018-2019** | **icra vəziyyəti qiymətləndirilmir** |
| 1. İnhisarçılıq fəaliyyətinin, o cümlədən haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edən Rəqabət Məcəlləsinin yekun redaksiyasının hazırlanması ilə əlaqədar aidiyyəti üzrə təkliflərin təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2018-2019 | icra vəziyyəti qiymətləndirilmir |
| 1. İnhisarçılıq fəaliyyətinin, o cümlədən haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edən Rəqabət Məcəlləsinin yekun redaksiyasının hazırlanması ilə əlaqədar aidiyyəti üzrə təkliflər təqdim edilmişdirmi? | | | | 2018-ci ildə icra edilmişdir |
| **1.1.4. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi** | **İqtisadiyyat Nazirliyi** | **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Maliyyə Nazirliyi** | **2018-2020** | **qismən icra edilmişdir** |
| 1. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə əlaqədar beynəlxalq təcrübənin araşdırılması və yerli şəraitə uyğun müvafiq təkliflərin hazırlanması | İqtisadiyyat Nazirliyi | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Maliyyə Nazirliyi | 2018<br>IV rüb | icra edilmişdir |

| | | | | |
|---|---|---|---|---|
| 1. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə əlaqədar yerli şəraitə uyğun müvafiq təkliflər hazırlanmışdırmı? | | | | Bəli |
| 2. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Maliyyə Nazirliyi | 2019<br>I yarımillik | icra edilməmişdir |
| 2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdirmi? | | | | Xeyr |
| 3. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqinin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Maliyyə Nazirliyi | 2019<br>II yarımillik | icra edilmişdir |
| 3. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının stimullaşdırılması tədbirləri həyata keçirilmişdirmi? | | | | Bəli |
| **1.2. Vergi sisteminin effektivliyinin artırılması** | | | | |
| **1.2.1. Vergitutma mexanizminin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması** | **İqtisadiyyat Nazirliyi** | **Maliyyə Nazirliyi** | **2018-2020** | **icra edilmişdir** |
| 1. Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması məqsədilə ədalətli vergi səviyyəsinin qiymətləndirilməsi və beynəlxalq təcrübə araşdırılmaqla yerli şəraitə uyğun təkliflərin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | 2018 IV rüb -<br>2019 I rüb | icra edilmişdir |
| 1. Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı təkliflər hazırlanmışdırmı? | | | | Bəli |
| 2. Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələrinin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | 2019<br>II rüb | icra edilmişdir |
| 2. Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələri hazırlanmışdırmı? | | | | Bəli |
| 3. Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | 2019<br>II yarımillik | icra edilmişdir |

| | | | | |
|---|---|---|---|---|
| 3. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələri Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilmişdirmi? | | | | Bəli |
| 4. Təkliflər qəbul olunduğu halda müvafiq tədbirlərin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | 2020 | icra vəziyyəti qiymətləndirilmir |
| 4. Təkliflərdə nəzərdə tutulmuş tədbirlərin icrası təmin edilmişdirmi? | | | | 2019-cu ildə icra vəziyyəti qiymətləndirilmir |
| **1.2.2. Vergi inzibatçılığının daha da təkmilləşdirilməsi** | **İqtisadiyyat Nazirliyi** | **Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi** | **2018-2020** | **icra edilmişdir** |
| 1. Vergiyə cəlbi stimullaşdıran, vergi uçotunun və hesabatlığının aparılması üzrə məsləhət xidmətlərinin geniş miqyasda və effektiv tətbiqini nəzərdə tutan vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədilə aparıcı ölkələrin təcrübələrinin nəzərdən keçirilməsi və təkliflərin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2018<br>IV rüb | icra vəziyyəti qiymətləndirilmir |
| 1. Vergiyə cəlbi stimullaşdıran, vergi uçotunun və hesabatlığının aparılması üzrə məsləhət xidmətlərinin geniş miqyasda və effektiv tətbiqini nəzərdə tutan vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədilə aparıcı ölkələrin təcrübələri araşdırılmışdırmı? | | | | 2018-ci ildə icra edilmişdir |
| 2. Araşdırmaların nəticəsi olaraq müvafiq istiqamətdə aidiyyəti üzrə təkliflər verilmişdirmi? | | | | 2018-ci ildə icra edilmişdir |
| 2. Vergiyə cəlbi stimullaşdıran, vergi uçotunun və hesabatlığının aparılması üzrə məsləhət xidmətlərinin geniş miqyasda və effektiv tətbiqini nəzərdə tutan vergi inzibatçılığının daha da təkmilləşdirilməsi ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələrinin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019<br>I yarımillik | icra edilmişdir |
| 3. Vergiyə cəlbi stimullaşdıran, vergi uçotunun və hesabatlığının aparılması üzrə məsləhət xidmətlərinin geniş miqyasda və effektiv tətbiqini nəzərdə tutan vergi inzibatçılığının daha da təkmilləşdirilməsi ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələri hazırlanmışdırmı? | | | | Bəli |
| 3. Vergitutma mexanizminin sadələşdirilməsi,könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019<br>II yarımillik | icra edilmişdir |
| 4. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələri Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilmişdirmi? | | | | Bəli |

| | | | | |
|---|---|---|---|---|
| 4. Vergiyə cəlbi stimullaşdıran səmərəli vergi sisteminin təşviq edilməsi üzrə tədbirlərin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | | 2019-2020 | icra edilmişdir |
| 5. Vergiyə cəlbi stimullaşdıran səmərəli vergi sisteminin təşviq edilməsi üzrə tədbirlər həyata keçirilmişdirmi? | | | | Bəli |
| 5. Çevik və məsafədən vergi nəzarətinin həyata keçirilməsinə imkan verəcək yeni məlumat mənbələrindən istifadənin genişləndirilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019-2020 | icra edilmişdir |
| 6. Çevik və məsafədən vergi nəzarətinin həyata keçirilməsinə imkan verəcək yeni məlumat mənbələrindən istifadənin genişləndirilməsi üzrə tədbirlər həyata keçirilmişdirmi? | | | | Bəli |
| 6. Vergi ödəyicilərinin uçota alınması və yenidən uçota alınması ilə bağlı mexanizmin təkmilləşdirilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2020 | icra vəziyyəti qiymətləndirilmir |
| 7. Vergi ödəyicilərinin uçota alınması və yenidən uçota alınması ilə bağlı mexanizmin təkmilləşdirilməsi üzrə tədbirlər görülmüşdürmü? | | | | 2019-cu ildə icra vəziyyəti qiymətləndirilmir |
| **1.2.3. Vergi auditinin və hesabatlılığının effektivliyinin artırılması** | **İqtisadiyyat Nazirliyi** | **Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi** | **2018-2020** | **qismən icra edilmişdir** |
| 1. Beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilən elektron mühasibatlıq sisteminin qiymətləndirilməsi və təkmilləşdirilmə ehtiyacının müəyyənləşdirilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2018 IV rüb - 2019 I yarımillik | icra edilməmişdir |
| 1. Elektron mühasibatlıq sisteminin qiymətləndirilməsi aparılmışdırmı? | | | | Xeyr |
| 2. Elektron mühasibatlıq sisteminin təkmilləşdirilməsinə dair işlərin görülməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019 II yarımillik - 2020 | icra edilmişdir |
| 2. Elektron mühasibatlıq sisteminin təkmilləşdirilməsinə dair tədbirlər görülmüşdürmü? | | | | Bəli |
| 3. Üçüncü şəxslərdən alınan məlumatların dairəsinin genişləndirilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2018 IV rüb - 2019 | icra edilmişdir |
| 3. Üçüncü şəxslərdən alınan məlumatların əhatə dairəsi genişləndirilmişdirmi? | | | | Bəli |
| 4. Üçüncü şəxslərdən alınacaq məlumatların mütəmadiliyinin təmin edilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2020 | icra vəziyyəti qiymətləndirilmir |
| 4. Üçüncü şəxslərdən alınan məlumatların mütəmadiliyi təmin edilmişdirmi? | | | | 2019-cu ildə icra vəziyyəti qiymətləndirilmir |
| 5. Beynəlxalq təcrübə nəzərə alınmaqla mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazlarına dair təkliflərin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2018 IV rüb | icra vəziyyəti qiymətləndirilmir |
| 5. Mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazlarına dair təkliflər beynəlxalq qabaqcıl təcrübə nəzərə alınmaqla hazırlanmışdırmı? | | | | 2018-ci ildə icra edilmişdir |
| 6. Mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazları ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələrinin hazırlanması | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019 I yarımillik | icra edilmişdir |
| 6.Mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazları ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla normativ hüquqi aktların layihələri hazırlanmışdırmı? | | | | Bəli |

| | | | | |
|---|---|---|---|---|
| 7. Mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazları ilə bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi aktların layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | 2019<br>II yarımillik | icra edilmişdir |
